# Xanəndə Məşədi Məmməd Hüseynov haqqında həqiqətlər

Klassik xanəndə, muğam ustası Məşədi Məmməd Fərzəliyev haqqında ilk məlumatla Firudun Şuşinskinin yazılarından tanış olmuşan. Burada xanəndənin atasının adı göstərilmir [s. 180-187]. Bakılı mahir qarmon ifaçısı Adil Məşədi Məmmədhəsən oğlu Hüseynov (təxəllüsü Zərgəroğlu, 1923-2008) 17 il əvvəl mənə Məşədi Məmmədin Fərzəliyev deyil, əslində Hüseynov soyadlı və onların səcərə xəttinə, Hüseynovlara aid olduğunu bildirmişdir.

Məşhur rəqs ustadı, xalq artisti Əlibaba Abdullayevin (1915-1980) qızı Elmira xanım xahişimi nəzərə alaraq öz arxivindən mənə bu yaxınlarda bir disk göndərib. Bu disk mənə xanəndə Məşədi Məmməd Fərzəliyev haqqında tədqiqatımla bağlı lazımdır. Disk 09.07.2005-ci il tarixdə Məşədi Məmmədin nəticəsi Kəmalə xanımın mənzilində çəkilib. Orada S.Mümtaz adına İncəsənət və Ədəbiyyat Arxivinin sabiq direktoru, Maarif Teymur (1946-2016), M.M.Fərzəliyevin nəvəsi, nəticəsi, bu nəslin nümayəndələri olan xanımlar və bu sırada Elmira Abdullayeva iştirak edir. M.Teymurun danışığından məlum olur ki, o, həmin mənzildəki toplantıya əsl həqiqətin üzə çıxarılması üçün gəlib. Lakin 1 saat yarımlıq çəkilişdə söhbət zamanı xeyli danışılsa da Məşədi Məmmədin soyadı Hüseynov olduğu halda niyə Fərzəliyev kimi təqdim edildiyi tam bəlli olmur. Düzdür, orada bu barədə qısa nəsə deyilir. Çəkilişə əsasən bu qənaətə gəlmək olar ki, həqiqəti əsas tutub bu toplantiya gəlsə də, onun üzə çıxmasında Maarif bəyin elə də rolu görünmür. O, söhbət əsnasında bu məsələ ilə bağlı fikir bildirmək istədikdə dəfələrlə F.Şuşinskinin adını hörmətlə çəkib, onun ünvanına tərifli sözlər söyləyir və böyük işlər gördüyünü dilə gətirir ki, sonradan onu kimsə yamanlamasın. Yəni özünü sığorta edir. Əslində isə tanınan ziyalımız, çox hörmətli M.Teymur F.Şuşinskinin Məşədi Məmmədin doğum-ölüm tarixi, onun şuşalı, Fərzəliyev soyadlı olduğu fikirləri ilə razılaşmadığını ortaya qoymaq üçün gəlsə də, çəkindiyinə görə əsl həqiqəti açıq-aydın danışmayıb. Xanəndənin nəsil davamçıları isə danışıblar.

Əziz yurddaşlar. Firudun Şuşinski yazır: "Məşədi Məmməd Fərzəliyev əslən şuşalı olsa da Şuşada çox az yaşamışdı. O, cavan yaşlarında bir müddət Gəncədə, sonralar isə Tiflis, Batum, Vladiqafqaz, İstanbul və sair şəhərlərdə yaşamış və xanəndəlik etmişdir" [5, s. 180]. F.Şuşinski eyni adlı kitabında Məşədi Məmməd Fərzəliyevin erməni tar-kamança ifaçısı ilə birlikdə musiqi üçlüyü kimi Moskvada verdiyi uğurlu konsertlərin, bu nailiyyətin nəticəsi olaraq həmin üçlüyün xarici ölkələrə - Polşa, Almaniya, Fransa, Belçika, Avstiriya, İngiltərə, Rumıniya, Türkiyə və İrana göndərilməsini bildirir [5, s. 186].

**Qeyd:** "Zənnimcə F.Şuşinski öz yazı qaydalarına əməl edərək şişirtmələrə yol verib. Həmin dövrdə Sovet hakimiyyəti yenicə formalaşırdı, qapalı dövlət olaraq başqa ölkələrlə əlaqəsi o qədər də möhkəm və ürəkaçan deyildi. Dövlət başçısı İ.V.Stalinin (1878-1953) amansız rejiminin qadağaları daha çox idi. Onun ölümündən sonra Sovet dövlətinin ədəbiyyat, incəsənət və mədəniyyət xadimlərinə xarici ölkələrə qastrol səfərləri üçün imkanlar açılmışdı".

Həmin kitabdan oxuyuruq: "1929-cu ildə Məşədi Məmməd Fərzəliyev yenidən xaricə qastrol səfərinə çıxmış, bir daha vətəninə qayıtmamışdır.

O, xaricdə yaşadığı illər milli musiqiyə yeni bir şey əlavə etməsə də, lakin milli vokal məktəbinin ən yaxşı ənənələrini hifz edib saxlamış, ömrünün sonunadək Azərbaycan xanəndəsi kimi qalmışdır. Məşədi Məmməd 1962-ci ildə 90 yaşlarında Türkiyədə-İstanbul şəhərində vəfat etmişdir" [5, s. 187]. "Azərbaycan xalq musiqiçiləri" kitabında Məşədi Məmmədin öz həyat yoldaşı Xədicə xanımla 1912-ci ildə çəkilən fotoşəkli də göstərilir [5, s. 185]. F.Şuşinskinin belə fikirləri bizə maraqlı olsa da, faktları haradan götürdüyü aydın deyil. O, öz məşhur kitabında, səhifə 187-də qeyd edir [ 1.Musa Şuşinskinin xatirələrindən. Xa-



tirə kitabın müəllifində arxividə saxlanılır]. Belə qeydlə F.Şuşinski öz yazısını, fikirlərini sığortalayır. Beləliklə, məsuliyyəti xanəndə Musa Şuşinskinin (1893-1971) üzərinə qoyur. F.Şuşinskinin "Azərbaycan xalq musiqiçiləri" kitabı 1985-ci ildə çıxıb və məlum olduğu kimi M.Şuşinski 1971-ci ildə dünyasını dəyişib.

Müəllifin yazdığı kimi Məşədi Məmmədin təxminən 90 yaşında vəfat etməsini geri hesablayanda onun 1872-ci ildə doğulduğu məlum olur. Vikipediyada göstərilir ki, Məşədi Məmməd Fərzəliyev 1872-ci ildə Şuşada anadan olub və 1962-ci ildə İstanbulda vəfat edib. Orada onun haqqında yazılanlar F.Şuşinskinin kitabındakı ilə eynidir, deməli həmin mənbədən götürülərək vikipediyaya yerləşdirilib.

SSRİ xalq artisti Sidqi Ruhulla (1886-1949) "Bülbül haqqında xatirələrim" məqaləsində yazır: "1915-ci ildə Gəncədə Məşədi Cəmil Əmirovun Seyfəl-mülk" operasını tamaşaya qoymaq üçün hazırlıq gördük. Bu məqsədlə görkəmli xanəndə və sazəndələrdən Məşədi Məmməd Fərzəliyev, Məşədi Cəmil Əmirov, Ələsgər Abdullayev, Məcid Behbudov və başqalarından ibarət bir qrup təşkil etdik. "Seyfəl-mülk" operasının rollarını bu adamlar arasında bölüşdürdük. İlk tamaşanı 1915-ci ildə Tiflisdə indiki Opera və Balet Teatrında göstərdik" [3].

Məşədi Məmmədlə bağlı tamaşa etdiyim diskdə onun nəvəsi Həqiqət xanım əldə etdikləri sənədə əsasən babası Məşədi Məmmədin 1858-ci ildə dünyaya gəldiyini söyləyir.

Diskdə yaşı təxminən 70-i keçən Həqiqət xanımın söhbətlərindən: "Biz Nəsimi Rayon Mənzil İstismar İdarəsinin arxivindən sənəd almışıq. Sənəddə babam Məşədi Məmməd Abduləli oğlunun 1936-cı ildə rəhmətə getdiyi qeyd olunub. Dəfn olunduğu yer isə bizə məlum deyil".

**Qeyd:** "Çox güman ki, Məşədi Məmməd vaxtılə mövcud olmuş Çəmbərəkənd qəbristanında dəfn olunub. Axı sonradan həmin məzarlıq aradan götürülmüş, park salınmış və ən hündür bir yerdə S.M.Kirova heykəl qoyulmuşdu".

Məşədi Məmməd Hüseynovun ömür-gün yoldaşının Xədicə xanım (F.Şuşinskinin yazdığı kimi) olmasını onun nəvə-nəticələrinin dilindən eşitmirik. Onlar Bikəxanımın adını çəkirlər. Deməli, elə çıxır ki, Məşədi Məmmədin iki ailəsi olub? Sağ qalan nəsil davamçılarına bu barədə heç nə məlum deyil.

Məşədi Məmmədlə bağlı mənzil şəraitindəki həmin kiçik toplantıda xeyli söhbət aparılsa da, Hüseynov soyadlı bu xanəndənin niyə Fərzəliyev kimi tanınıb məşhurlaşdığı haqda bir fikir bildirir, amma tam olaraq aydınlaşmır. Lakin sənətkarın nəvəsi Həqiqət xanım təkrar olaraq babası Məşədi Məmmədin 1858-ci ildə Bakıda doğulduğu, Mirzağa Əliyev küçəsi ev 167-də yaşadığı və burada dünyasını dəyişdiyi barədə məlumat verir. Bildirir ki, babasının Fərzəliyev soyadı alması onun


ARAYIŞ
Hüseynov Məmməd Abduli Əli oğlu
(soyadı, adı, atasının adı)
«16» iyun 1936-cı ildə ölmüşdür.
Ölüm haqqında « 17» iyun 1936-cı il tarixli 1714 №-li akt qeydi tərtib olunmuşdur.
Ölümün səbəbi Paralic.
Öldüyü yer Azərbaycan Respublikası, Bakı şəhəri
Ölümün qeydə alındığı yer Bakı şəhəri
Yasamal rayon VVADQ şöbəsi
(VVADQ orqanın adı)
Verildiyi tarix « 09 » avqust 2005 il
№ 480/01
Yasamal rayon VVADQ şöbəsinin müdiri
(VVADQ orqanın adı)
M.Y.
(imzası və soyadı)

xasiyyəti, davranışı, mərdliyi, özünəxas xarakterik xüsusiyyətləri ilə bağlı ola bilər. O, əlavə edir: "Babamgil beş qardaş olublar. Qarmonçalan Adil Hüseynov babamın qardaşı oğludur. Məşədi Məmmədin üç oğlu - Salman, Aslan, Süleyman və Cavahir adlı qızı olub. Mən böyük oğul Salmanın qızıyam. Babam dünyadan köçəndən sonra Üzeyir Hacıbəyli qayğı göstərərək Bikəxanım nənəmə hər ay pensiya göndərib. Sonra isə ona sənədlər əsasında pensiya düzəldib.

Babam Məşədi Məmməd Abdüləli oğlu Hüseynov böyük sənətkar olaraq ölkələr gəzib dolaşıb. Atam danışardı ki, o, yaraşıqlı, görünüşlü, görkəmli kişi olub. Atam mənə deyirdi ki, sənin babam İran şahının sarayında keçirilən tədbirə də dəvət edilib, oxuyub və şah tərəfindən çox bəyənilib. Şah zümrüd qaşlı, çox qiymətli, iri qızıl üzüyünü çıxarıb Məşədi Məmmədə bağışlayıb. Şah babama deyib ki, gedin Bakıdan ailənizi də gətirib gəlin, İranda yaşayın. Xanəndə kimi burada sənə yaxşı olar. Lakin Məşədi Məmməd məclis bitən kimi gecəylə Bakıya qayıdıb.

İran şahının verdiyi həmin üzük babamdan atama qalmış, atam da anama, anam isə mənə bağışlamışdı. Atam Salmanın dediyindən məlum olur ki, babam Məşədi Məmməd yazıb-oxumağı bilməyib, lakin güclü hafizəsi olub. Qəzəlləri eşidən kimi yadında qalırmış. Mən babamı görməmişəm, yalnız şəkillərdən tanıyıram. Evimizdə babama aid heç bir sənəd qalmayıb".

Salman Hüseynov qızına, Həqiqət xanıma danışırmış ki, atam Məşədi Məmməd rəhmətə gedəndə bütün sənət adamları həyətimizə, M.A.Əliyev 167 ünvanına toplaşmışdı, iynə atsaydın yerə düşməzdi. Onu izdiham yola saldı. Firudin Şuşinski yazır ki, xanəndə Məşədi Məmməd İstanbulda dünyasını dəyişib.

Həqiqət xanım: "Bizim qohum-əqrəbada musiqiçilər çox olub. Anam qarmon və piano çalsa da, məclislərə getmirdi. Onun yaxşı qarmonu vardı, onu qarmonçalan əmisi qızına bağışladı". Hazırda isə yaşı 80-ni ötən və yataq xəstəsi olan, yaddaşını itirən, danışa bilməyən, yanına gələnləri tanımayan Həqiqət xanımla əlaqə yarada bilmədik.

**Haşiyə:** "Elmira Abdullayevanın toplayıb öz arxivində saxladığı sənədlərdə beş qardaşın adı göstərilir: Hüseynov Məşədi Məmməd Abdüləli oğlu, Hüseynov Məmmədrza Abdüləli oğlu, Hüseynov Məmmədhəsən Abdüləli oğlu, Hüseynov Məmmədhüseyn Abdüləli oğlu, Hüseynova Həbibə Abdüləli qızı. Məşədi Məmmədlə ömür yoldaşı Bikəxanım bibioğlu, dayıqızı olublar".

Nəticə Hicran xanım, Həqiqət xanımın bacısı qızı: "Yuxu kimi yadıma gəlir. Evimizdə alboma oxşar vallar var idi, atam deyirdi kı, babanızın səsi yazılan vallardır. Albomu vərəqlədikcə ardıcıl olaraq bir-bir vallar çıxırdı. Sonralar həmin vallar necə oldu, deyə bilmərəm. Umuxanım nənəmin qarmon çalmağını xatırlayıram, gözəl, yaraşıqlı, bəzəkli qarmonu vardı, yaxşı da ifa edirdi. Qədim dolabı (şfoner) var idi, qarmonu orada qoruyurdu. O, dayım müharibəyə gedib itkin düşəndən sonra daha qarmon çalmadı. Nənəm danışırdı ki, mən bu qarmonu çalanda Əhəd Əliyev (1893-1942) eşidib və soruşub ki, çalan kimdir? Kimsə bir başqa adamın adını çəkəndə, Əhəd Əliyev deyib ki, yox, siz məni aldada bilməzsiniz, çalan Umuxanımdır, bu, onun barmaqlarıdır. Heç kəs onun barmaqlarını vura bilməz".



*(Davamı var)*

*Əhsən Rəhmanlı*
***sənətşünaslıq üzrə fəlsəfə doktoru***